Ürəyi böyük müdrik insan...

Nizami Cəfərov haqqında yazmaq istəyirəm. Elm aləmində yaxşı tanınan Nizami Cəfərov haqqında. Ancaq çətinlik çəkirəm. Elə bil birinci dəfədir əlimə qələm alıram. Bu nədir? Yoxsa, Məmməd Araz demişkən: yoxsa ömür də tükənir, söz də tükənir? Yaddaşımla bir neçə on il əvvələ qayıdıram...

Mən Nizami Cəfərovun yazılarını İrəvanda olarkən izləyirdim. Hələ o, heç namizədlik dissertasiyasını da müdafiə etməmişdi. İllər keçdi. Nizami Cəfərovla ilk dəfə 28 il əvvəl, 1991-ci ildə üzbəüz görüşmək nəsib oldu. Rəhmətlik professor Mirəli Seyidovla indiki Bakı Dövlət Universitetinə getmişdim. Mirəli müəllim Nizami Cəfərovla görüşdükdən sonra, doktorluğunu nə vaxt müdafiə edəcəyini soruşduqda, o "bu yaxınlarda" - deyə cavab verdi.

Mən 2003-cü ildə doktorluq dissertasiyasını müdafiə etsəm də, təsdiqi böyük bir problemə çevrildi. O zaman orada Ekspert Şurasının sədri olan Nizami müəllimin həqiqəti cəsarətlə müdafiə etməsi nəticəsində diplomu aldım. AAK-a gedəndə, məni görən kimi Nizami Cəfərov dedi ki, az qalmışdı sənin yerinə mən müdafiə edəm.

2012-ci il idi. Sankt-Peterburqda nəşr olunmuş "İrəvan ziyalıları" kitabım ADU tərəfindən Azərbaycan Respublikasının Dövlət mükafatına təqdim olunmuşdu. Professor Teymur Əhmədov mənə təklif etdi ki, Nizami Cəfərova denən, vaxtı olsa, bu kitaba rəy yazsa, yaxşı olar. May ayının 18-də "Dövlət mükafatına namizədlər" rubrikası altında "Respublika" qəzetində Nizami Cəfərovun "İrəvan ziyalıları haqqında düşüncələrim" adlı irihəcmli məqaləsi dərc olundu. Teymur müəllim məni görən kimi dedi: Əsgər, Nizaminin yazısından sonra mənə neçə nəfər zəng edib, deyirlər: "Deyəsən, Dövlət Mükafatı öz namizədini tapıb". Nizami Cəfərov öz fikirlərini elmi şəkildə əsaslandırmışdı.

Akademik Nizami Cəfərov öz müdrik məsləhətləri ilə həmişə məni elmi işə həvəsləndirmişdir. Nizami Cəfərov böyük ürək sahibidir. O, elm sahəsində vicdanla çalışanları, az da olsa, uğur qazananları görür, qiymətləndirir.

Mən Nizami müəllimin bir çox kitablarını oxumuşam. Onun "Bir dilçinin xatirələri" kitabını oxuduqda bəlli oldu ki, o da Azərbaycanın əksər böyük ziyalılarının taleyini yaşamışdır - Mustafa Topçubaşovun, Əziz Əliyevin, Heydər Hüseynovun, Səid Rüstəmovun, Hüseyn Seyidzadənin, Məmməd Arazın, Yəhya Məmmədovun, Budaq Budaqovun və s.

1948-53-cü illərin deportasiyası zamanı bu ailə İrəvan xanlığının Vedibasar mahalından Ağstafaya köçmüş, burada məskunlaşmışdır. Xalq şairi Nəriman Həsənzadə bu görkəmli alimə həsr etdiyi "Nizami" poemasında həmin hadisəni ətraflı təsvir etmişdir.

Nizami Cəfərovun yaradıcılıq diapozonu çox genişdir. Bunu onun müxtəlif səpkidə yazdığı əsərləri də əyani şəkildə təsdiq edir. Nizami Cəfərov yaradıcılığında klassik ədəbiyyata ("Füzulidən Vaqifə qədər" (1995), Molla Pənah-Vaqif (2017), şifahi ədəbiyyata (Koroğlunun poetikası (1997), "Eposdan kitaba" (1997), türkologiyaya ("Türkün dünyasından türk dünyasına", "Türkologiyanın müasir problemləri"), türk ədəbiyyatına ("Qədim türk ədəbiyyatı", "Türk xalqları ədəbiyyatı"), müasir Azərbaycan ədəbiyyatına ("Anar", "Elçin. Yazıçının yaradıcılıq yolu", "Afaq Məsud dünyası", "Dolan kəfkirim dolan" və s.) müraciət olunmuşdu. Dilçi-tərcüməçi haqqında - "Möhsün Nağısoylu" əsəri. Əlbəttə, bu siyahını hələ artırmaq olar. Göründüyü kimi, bu aksiomdur, bizcə araşdırmaya elə ciddi bir ehtiyac yoxdur. Ancaq bu yaradıcılıqda hər kəsin müraciət edə bilməyəcəyi mövzu ilə yanaşı, çox adamın yadına düşməyəcəyi, unudulmuş şəxslər də gündəmə gəlir. Məs.: onun ədəbiyyatşünas, filosof Asif Əfəndiyevlə bağlı yazdığı məqalə. Yaradıcılığına və şəxsiyyətinə müxtəlif baxımdan yanaşılan tənqidçi. "Mənim həyatda, sənətdə pərəstiş etdiyim, elmin, sənətin gücüylə insanların qəlbinə hakim olmaq səlahiyyəti - əsl müdriklik səlahiyyəti" - deyən və buna az-çox nail olan Asif Əfəndiyev sonralar demək olar ki, unuduldu.

Nizami müəllim "Asif Əfəndiyev əfsanəsi" məqaləsilə bu təzadlı alimi yada saldı və onun haqqındakı bəzi maraqlı faktları oxuculara təqdim etdi. Nizami müəllim yazır ki, A.Əfəndiyev ali məktəbdə dərs deyərkən Moskvadan yoxlama gəlir. Onları onun dərslərinə aparırlar. Bəzən cədvəl üzrə onun dərsi olmasa da, A.Əfəndiyevin dərslərində iştirak edib, onun mühazirələrini dinlədikdən sonra, nümayəndələr - "Kaş Moskvanın da ali məktəblərində belə alimlər dərs deyəydilər" söyləyib öz heyranlıqlarını gizlədə bilmirlər.

Nizami müəllim öz müəllimləri haqqında həmişə söz ehtiyatını sıxmadan ağız dolusu danışıb. Onların haqqında dolğun məqalələrlə dövri mətbuatda çıxış edib, eləcə də kitablarında bu mövzuya qayıdıb. Ancaq onlara, xüsusilə iki böyük alimə, iki müəlliminə dərin hörmət və səmimiyyətlə yanaşmasını ayrıca qeyd etmək lazım gəlir. Ağamusa Axundov və Tofiq Hacıyevə. 2000-ci illərdə Ağamusa Axundov da, Tofiq Hacıyev də və onların tələbəsi Nizami Cəfərov da AMEA-nın müxbir üzvü idilər.

2007-ci ildə AMEA-ya müxbir və həqiqi üzvlüyünə seçkilər keçirildi. N.Cəfərov öz ustadlarına hörmət əlaməti olaraq AMEA-nın həqiqi üzvlüyünə namizədliyini təqdim etmədi. Həmin il Ağamusa Axundov Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçildi.

2014-cü ildə AMEA-ya növbəti seçkilər oldu. Artıq respublikanın bütün ziyalı təbəqəsi arasında bu söhbət səmimiyyətlə, sanki bir nümunə kimi söylənilirdi ki, N.Cəfərov öz müəlliminə, elmi rəhbərinə hörmət əlaməti olaraq akademikliyə namizədliyini təqdim etməmişdir. Əlbəttə, bu, insandan böyük cəsarət və qeyrət tələb edir. Bu, hər kəsin işi deyil. Bu hərəkət nəsillər üçün də tarixi bir dərsdir, bir örnəkdir.

Nəhayət, 2017-ci ildə böyük səbirlə öz vaxtını gözləyən Nizami Cəfərova növbə çatdı və o, AMEA-nın həqiqi üzvü seçildi.

Bugünkü akademik Nizami Cəfərov vaxtı ilə öz müəllimlərindən o qədər xeyirxahlıq görmüşdü ki, imkan düşdükcə sanki onları qaytarmaq istəyir.

"Bir dilçinin xatirələri" kitabından aydın olur ki, Nizami Cəfərov ali məktəbi qurtardıqdan sonra aspiranturaya qəbul olmaq istəyir. Ancaq iki il iş stajı tələb edilir. Böyük çətinlik yaranır. Rəhmətlik Mir Cəlal müəllim demişkən: "Yolumuz hayanadır?" Dəhlizdə o təsadüfən müəllimi professor Əlövsət Abdullayevə rast gəlir. Bu yerdə XVIII əsr təkcə Fransanın deyil, eləcə də Avropanın ən böyük yazıçısı Volterin "Zadiq, yaxud tale" romanından "Balıqçı" novellasındakı hadisələr yada düşür. Ardıcıl olaraq uğursuzluğa məruz qalan balıqçı hədsiz dərəcədə ümidsizliyə qapılır. Təsadüfən Zadiqə rast gəlməsi onun həyatını ağlagəlməz dərəcədə, xoşagəlim halda dəyişir. Kasıblıqdan varlı bir adama çevrilir. Volter yazır ki, insanlar elə bilir həyatdakı hadisələr təsadüfən baş verir. Onun fikrincə, həyatda təsadüfi heç nə yoxdur, o öz axarı ilə gedir. Əsərdən bəlli olur ki, Tanrı Zadiqi balıqçını xilas etmək üçün ora göndərmişdi.

Nizami Cəfərovun həmin məqamla bağlı xatirələri. "Bıçaq vursan, qanım çıxmazdı... Dəhlizdə gedə-gedə Əlövsət müəllim yadıma düşdü. Ona deyim ya deməyim?... Tanrının qəribə işləri olur. Başımı qaldıranda gördüm ki, Azərbaycan dilçilik kafedrasının ağzından keçirəm. Əlövsət müəllim də qapının ağzında dayanıb mənə baxır... Məsələdən hali olandan sonra Əlövsət müəllim bir an belə düşünmədən:

-Hələ bir dayan görək. Arxamca gəl! - deyib qabağa düşdü. Mən də onun arxasınca...". Yenə də Hüqonun: "Fikirli adamlar yol getdikləri zaman heç vaxt geriyə dönüb baxmırlar. Çünki onlar öz talelərinin dalınca getdiklərini çox gözəl bilirlər".

Nizami müəllim də heç nəyi görmədən, fikir vermədən öz taleyinin dalınca gedirdi. Bəli, rast gəldiyi Əlövsət müəllim məsələni yerindəcə həll edir. Volterin təbirincə desək, Ulu Tanrı Əlövsət müəllimi o anda ora göndərmişdi. Təsadüfi heç nə yox idi.

Əgər bu, bir təsadüfdirsə, o zaman böyük fransız alimi Lui Pasterin sözlərini xatırlamaq lazım gəlir: "Təsadüf hazırlıqlı adamlara kömək edir". Bu gözəl təsadüf Nizami Cəfərovu böyük elmə aparan yolun başlanğıcı idi. Ancaq professor Əlövsət Abdullayevin vaxtı ilə Nizami müəllimə dediyi "Arxamca gəl!" sözləri get-gedə zərbi-məsələ çevrilməkdədir. Onu da etiraf etmək lazımdır ki, zaman keçdikcə "Arxamca gəl!.." deyəcək insanların sayı sürətlə azalır, bəlkə də yox səviyyəsinə enmək dərəcəsindədir.

Nizami müəllimin bir fikri demək olar ki, bütün elm adamları üçün həyat devizinə çevrilə bilər. "... Tərcümeyi-halımı vərəqlədikcə görürəm ki, çox adama borcluyam".

Bütün insanların həyatında borclu olduqları adamlar var. Ancaq bəzən elə adamlar var ki, müəyyən vəzifəyə, mənsəbə, rütbəyə çatdıqda hər şeyi unudur. Sanki bu insanlar dünyaya belə gəliblər. Heç kim onun əlindən tutmayıb, dayaq olmayıb. Bu həqiqi, səmimi etiraf Nizami müəllimin bir daha böyüklüyünü təsdiq edir. Həyatda müəyyən nailiyyətlər əldə etmiş bütün insanlar ilk növbədə Ulu Tanrıya, valideynlərinə, müəllimlərinə müəyyən məqamlarda ona köməklik edənlərə borcludurlar. O cümlədən də ziyalı təbəqənin - xüsusiylə tədqiqatçı alimlərin əziyyətini çəkmiş kitabxanaçılara. Nizami müəllimin dostu, Xalq şairi Nəriman Həsənzadənin dediyi kimi: "Biz bu əziyyəti qoşa çəkmişik, şöhrət mənə düşüb, əziyyət sənə".

Dahi fransız ədibi Viktor Hüqo dostu məşhur yazıçı Aleksandr Düma haqqında yazır ki, onun ürəyi də ağlı qədər böyükdür... Bu sözləri N.Cəfərova da aid etmək olar.

Nizami Cəfərov hamının istənilən vaxt üz tutduğu insandır. Mən dəfələrlə bunun şahidi olmuşam.

Nizami Cəfərovdan danışarkən böyük başqırd şairi, Mustay Kərimin dahi Çingiz Aytmatov haqqında dediyi sözlər yada düşür: "O, təzə başlayanlardan olmayıb, demək olar ki, gəncliyin sırasında da qalmayıb. O, ədəbiyyata birdən və həmişəlik gəlmişdir".

Bəli, Nizami Cəfərov ədəbiyyata da, dilçiliyə də birdən gəlmişdir. Nizami Cəfərovun bütün uğurları, demək olar ki, gözlərimiz qarşısında olmuşdur. Elmlər doktoru, professor, BDU-da filologiya fakültəsinin dekanı, AMEA-nın müxbir üzvü, sonra həqiqi üzvü, Əməkdar elm xadimi, Azərbaycan Prezidenti yanında AAK-ın Ekspert Şurasının sədri, Atatürk Mərkəzinin direktoru, Milli Məclisin üzvü, Milli Məclisin komissiya sədri... Bilmirəm, bəlkə də nələrsə yadıma düşmədi... Titullar, vəzifələr onun qapısını açdıqca o daha sadə, daha təvazökar oldu. Bunlar onun duruluğunun güzgüsünə çevrildi. Bu yerdə böyük Bəxtiyar Vahabzadənin sözləri yadıma düşür:

Vəzifə, ay vəzifə
Səndəki qüdrətə bax
Rentgenin göstərmədiyini
Sən göstərirsən ancaq.

... Nizami Cəfərov münaqişələrdən, intriqalardan uzaq adamdır. O, professor Vaqif Aslanov haqqında məqaləsində yazır ki, böyük alim, hətta məcbur edilsə, belə mənsəb - mövqe münaqişələrinə qarışmayıb elmlə məşğul olsaydı, həm həyatdan vaxtsız getməz, həm də indikindən qat-qat artıq fayda verər, şöhrətli olardı... Sonra Nizami müəllim ürək ağrısı ilə fikrini belə yekunlaşdırır: "Biz çox böyük alimlərimizi heç nədən itirmişik...".

Bəli, bu il sentyabr ayının 21-də akademik Nizami Cəfərovun iki otuz yaşı tamam olur. Ancaq onun səmimiyyətinin, mehribançılığının nəticəsidir ki, hələ 2019-cu il başlayandan respublikanın ən nüfuzlu, ən görkəmli alimləri, ziyalıları onun yubileyi münasibətilə məqalələr yazıb dərc etdirmişlər. Şübhəsiz ki, bu başlanğıcdır. İnanırıq ki, yubileylə bağlı məqalələr ilboyu davam edəcək.

Onun yaradıcılıq tutumu, ictimai fəaliyyəti, şəxsiyyətinə az-çox bələd olanlarda bəlkə də elə təsəvvür yaranardı ki, onun bu yaşı 15-20 il əvvəl tamam olmuşdu. Biz də zamanı vaxtından əvvəl qabaqlayan bu zəhmətkeş alim, səmimi həmişə üz tutula bilən insanı təbrik edir, möhkəm cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

Əsgər ZEYNALOV,
filologiya elmlər doktoru, professor.